# Korrupsiya və rüşvətxorluq hallarına qarşı ciddi mübarizə apararaq, səmərəli idarəçilik mexanizmi yaratmaq prioritet vəzifədir

***Prezident İlham Əliyevin 4 aprel 2022-ci tarixli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.***



***Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya qarşı daha da ciddi mübarizə aparılmalıdır. Bu barədə kifayət qədər qanunvericilik bazası mövcuddur, göstərişlər verilmişdir, sərəncamlar imzalanmışdır. Elə etməliyik ki, Azərbaycanda bu xoşagəlməz halları aradan götürək. Bunu etmək üçün isə gərək biz hamımız – həm iqtidar, həm vətəndaşlar bir hədəfə vurmalıyıq.***

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

Bu sənəd ölkədə həyata keçirilən islahatların növbəti mərhələsidir. Hazırda bütün sahələr üzrə aparılan islahatlar öz müsbət nəticəsini göstərir. Bu gün əhalini daha çox narahat edən məsələlərdən biri də korrupsiya və rüşvətxorluqdur. Son 18 ildə həyata keçirilən tədbirlər və qəbul edilən qanunvericilik aktları sayəsində korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə kəskin xarakter alıb. Prezident İlham Əliyevin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq, ölkədə korrupsiyaya qarşı sistemli mübarizənin aparılması istiqamətində görülən işlərin, həyata keçirilən islahatların və təşkilati tədbirlərin səmərəliliyi yüksəlmiş, korrupsiyaya qarşı daha ciddi mübarizənin aparılmasında müvafiq orqanların üzərinə düşən vəzifələrin həcmi və məsuliyyəti daha da artmışdır.

Korrupsiya və rüşvətxorluq halları bütün ölkələrdə sağalmaz yaraya çevrilib. Hələ 2003-cü ildə cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra qarşıya qoyulan prioritet vəzifələrdən biri də korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparmaq oldu. Həmin vaxtdan başlayaraq, ölkəmizdə korrupsiyaya qarşı mübarizə yeni mərhələyə qədəm qoydu. Belə ki, dövlət başçısı tərəfindən mahiyyəti qabaqlayıcı və inzibati tədbirlərin birgə həyata keçirilməsi olan qətiyyətli siyasi iradənin ortaya qoyulması nəticəsində korrupsiyaya qarşı səmərəli mübarizənin dörd istiqamət üzərində qurulması mümkün olmuşdur: beynəlxalq standartlara cavab verən qanunvericilik bazasının yaradılması, dövlət idarəetməsində şəffaflıq, ədalətli məhkəmə sistemi və səmərəli antikorrupsiya qurumları.

2004-cü ildə "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanun qəbul olundu. Həmin qanunun 4.2-ci maddəsinə uyğun olaraq yaradılmış Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya bu sahədə irəliyə doğru atılan daha bir addım idi. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını və digər normativ hüquqi aktlarını, habelə, bu əsasnaməni rəhbər tuturdu.

Həmin vaxt ölkəmizdə gedən uğurlu inkişaf proseslərinə mane olan məsələlərin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edirdi. Bu sırada korrupsiya və rüşvətxorluq hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi diqqət mərkəzində saxlanılırdı. Bu məqsədlə mütəmadi olaraq, tədbirlər həyata keçirilmiş, mübarizə metodlarının daha səmərəli olması üçün qanunvericilik bazası gücləndirilmişdir. Ötən dövrdə korrupsiyaya qarşı mübarizə üzrə 2004–2006-cı illəri əhatə edən Dövlət Proqramı qəbul olunmuşdur. 2007-ci ildə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" və onun həyata keçirilməsi ilə bağlı 2007–2011-ci illər üçün Fəaliyyət Planı təsdiq edilmişdir.

Bu dövrdə korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumlar da fəaliyyətə başlamışdır. Bunlar Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsidir. Bu qurumların əsas fəaliyyət istiqaməti korrupsiya hallarına və onun inkişafına şərait yaradan amilləri aşkarlamaq, təhlil etmək və onlara qarşı ciddi tədbirlər görməkdir. Bu sahədə çoxsaylı ixtisaslaşmış qeyri-hökumət təşkilatları da fəaliyyət göstərirlər. Bundan əlavə, 2008-ci ildə qəbul olunan "Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair tədbirlər haqqında" fərman dövlətin bu sahədə strateji kursunu müəyyən etdi. Həmin kursa əsasən, Azərbaycan korrupsiyaya qarşı mübarizə ilə bağlı bir neçə beynəlxalq sənədə, o cümlədən, Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında", "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" və Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" konvensiyalarına, həmçinin "Korrupsiyaya qarşı Birləşmiş Millətlər Təşkilatının Konvensiyası"na qoşulmuşdur. Bununla yanaşı, prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılmışdır. 2008-ci ildə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair" Dövlət Proqramı çərçivəsində milli memarlıq üslubunda, müasir standartlar səviyyəsində tikilən Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin yeni inzibati binası da bu sırada mühüm yer tutur.

2011-ci ilə qədər Azərbaycanda korrupsiyaya qarşı mübarizə qanunçuluq prinsipləri əsasında həyata keçirilmişdir. Şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi korrupsiyaya qarşı mübarizənin əsas prinsipləri kimi təsbit edilmişdir. Korrupsiyaya qarşı mübarizənin vahid strategiya çərçivəsində qurulması, bu sahədə görülən tədbirlərin davam etdirilməsi, zəruri qanunların qəbul edilməsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, səmərəli nəzarət mexanizmlərinin yaradılması, hüquq pozuntularının aşkar edilməsi və nəticələrinin aradan qaldırılması, yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və effektivliyinin təmin edilməsi, ümumən bu sahədə ümumi dövlət siyasətinin həyata keçirilməsi məqsədilə "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004–2006-cı illər)" qəbul olunmuşdur. Proqramın icrası dövründə əhəmiyyətli qanunlar qəbul edilmiş, korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşmış institutlar fəaliyyətə başlamış, dövlət orqanlarında islahatlar aparılmış, vətəndaş cəmiyyətinin üzvləri ilə səmərəli əməkdaşlıq qurulmuşdur. Korrupsiyaya qarşı mübarizə ilə bağlı bütün beynəlxalq sənədlər ratifikasiya edilmişdir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli islahatların ən əsas elementlərindən biri də korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsidir. Bu məqsədlə milli səviyyədə həm inzibati, həm də institusional üsullardan geniş istifadə olunur. Korrupsiya və rüşvətxorluğun ölkəmizin inkişafına dağıdıcı təsiri danılmaz faktdır. Bu gün ölkəmizdə korrupsiya və rüşvətxorluğun mövcudluğu, ilk növbədə, həyata keçirilən əhatəli iqtisadi və sosial proqramlara, habelə ədalətli cəmiyyətin qurulmasına mənfi təsir göstərir. Eyni zamanda, son illər dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən və bütün sahələri əhatə edən mərhələli islahatların səmərəliliyini artırmaq üçün korrupsiya və rüşvətxorluq hallarına qarşı kəskin mübarizə aparılmalıdır. Təbii ki, son illər bu sahədə ciddi mübarizə aparılması ictimaiyyət tərəfindən razılıqla qarşılanır. Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatların davamıdır. Bütün bunlar davamlı və uğurlu gələcəyimizin qurulmasına xidmət edəcək.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar ciddi nəticələr verməkdədir. Dövlət idarəçiliyinin bütün istiqamətlərini əhatə edən hüquqi, institusional və kadr islahatları ardıcıl olaraq davam etdirilir. İslahatların əsas məqsədlərindən birini korrupsiya ilə mübarizənin daha da sərtləşdirilməsi və vətəndaş-məmur münasibətlərinin daha sağlam prinsiplər üzərində qurulması təşkil edir. Bu sahədə dövlət qulluqçularının şəffaf fəaliyyəti və vətəndaş məmnunluğunun artırılması yönündə müəyyən uğurlar var.

Qanunsuz əməllərə son qoyulması tələbi ilə ən yüksək səviyyədə edilmiş açıq çağırışlara və xəbərdarlıqlara əməl etməyən, ifşa olunmuş məmurların aqibətindən nəticə çıxarmayan vəzifəli şəxslər barəsində qanunvericiliyə uyğun cinayət-hüquqi tədbirlərin görülməsi zərurətə çevrilib. Son illər Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Mədəniyyət və Müdafiə nazirliklərinin yüksək vəzifəli şəxslərinin, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin, nazirliyin aparat rəhbərinin, habelə Yevlax şəhərinin, Ağstafa, Biləsuvar, İmişli, Kürdəmir və Neftçala rayonlarının icra hakimiyyəti başçılarının, həmçinin bir sıra şəhər-qəsəbə icra nümayəndələrinin cinayət məsuliyyətinə cəlb olunaraq həbs edilməsi buna sübutdur. Dövlətimizin başçısı İlham Əliyevin baş prokuror Kamran Əliyevi qəbul edərkən ölkədə korrupsiyaya qarşı ciddi mübarizə aparılması ilə bağlı qətiyyətli mövqeyi bu sahədə mübarizənin daha da kəskinləşəcəyinə bir mesaj idi. Möhtərəm Prezidentimiz vurğuladı ki, tətbiq edilən məsuliyyət tədbirləri təkcə yerli icra hakimiyyəti orqanları ilə kifayətlənməyəcək, cəmiyyətin əsaslarını sarsıdan çirkin əməllərə yol verən bəzi mərkəzi icra hakimiyyəti orqanlarını da əhatə edəcək. Artıq bu istiqamətdə konkret addımlar atılmaqdadır. Yeri gəlmişkən, DTX və Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin istintaq-əməliyyat idarəsinin əməkdaşlarının bu sahədəki fəaliyyəti yüksək qiymətə layiqdir.

Əsas hədəflərdən biri korrupsiya və rüşvətxorluq hallarını əhəmiyyətli dərəcədə azaldaraq, səmərəli idarəçilik mexanizminin yaradılmasıdır. Bu gün milli səviyyədə aparılan mübarizədə məhz bu inkişaf qarşıda duran məqsədlərin reallaşdırılmasına xidmət etməkdir. Bu mübarizə regionlarımızın müasir çağırışlara cavab verən iqtisadi dayanıqlılığını, sosial rifahını və şəffaf idarəçiliyini möhkəmləndirəcək və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" burada əhəmiyyətli rol oynayacaq.

***Çingiz QƏNİZADƏ,***
***Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru***